**Azərbaycan Respublikasının Nazirlər Kabineti**

# «Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 2 may tarixli 66 nömrəli qərarında dəyişikliklər edilməsi barədə

**Qərar № 404**

**Bakı şəhəri, 26 dekabr 2014-cü il**

«Nüvə texnologiyalarından dinc məqsədlərlə istifadə üçün Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tabeliyində «Milli Nüvə Tədqiqatları Mərkəzi» Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 may tarixli 442 nömrəli Sərəncamının 4.3.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. «Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 2 may tarixli 66 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 440) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və 1-ci hissəsində «İnformasiya Texnologiyaları» sözləri «Yüksək Texnologiyalar» sözləri ilə əvəz edilsin;

1.2. həmin qərarla təsdiq edilmiş «Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı» üzrə:

1.2.1. adında və 12-ci hissəsində «İnformasiya Texnologiyaları» sözləri «Yüksək Texnologiyalar» sözləri ilə əvəz edilsin;

1.2.2. aşağıdakı məzmunda 14-cü hissə əlavə edilsin:

«14. «Milli Nüvə Tədqiqatları Mərkəzi» Qapalı Səhmdar Cəmiyyəti».

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**

**Artur RASİ-ZADƏ**